ədalət.2017.-8 yiul.S.13.

# YUBANMIŞ TƏBRİK

## Və yaxud Tahir Həbiboğlunun ovqatına



**Təqribən ötən ayın sonuncu ongünlüyündə görüşdüm onunla. Əslində isə mən onu hələ orta məktəbdə oxuduğum illərdə tanımışdım. Azərbaycanın o dövrlər üçün ən oxunaqlı qəzetlərindən biri olan "Sovet kəndi" və "Azərbaycan gəncləri" qəzetlərində imzasını görmüşdüm. Və düşünmüşdüm ki, yaqin günlərin bir günü taleh nəsib edər özünü də tanıyaram. İllər elə gətirdi ki, yollarımız kəsişdi və mən onu arzuladığım kimi də görə bildim...**

İndi 75 yaşını qeyd edən Tahir müəllim dağlar qoynunda doğulub. Özü də sovet-alman müharibəsinin ən ağır məqamında. Yəni 1943-cü ildə. Doğulduğu yer Azərbaycanın həqiqətən cənnət guşələrindən biridir. Yəni regionun saf havası, dağ çayları, bulaq suları, insanların saflığı və bir də nəsildən, kökdən gələn halallıq, zəhmətkeşlik Tahir Həbiboğlunu söz üstə böyüdüb, sözə kökləyib. Ona görə də həyatının ən gözəl çağlarını sözə bağışlayıb, sözə həsr edib. Burda bir məqamı xüsusilə qeyd etməliyəm ki, atası Həbib kişi 1943-cü ilin yanvarında cəbəyə gedəndə oğlu olacağını bilmirdi. Düz 3 ay sonra dünyaya gələn, gözünü açanda da atasını görməyən Tahir sadəcə ətrafında gedən söz-söhbətlərdən, anasının qəmli gözlərindən bilirdi ki, atası səngərdədi, atası cəbhədədi. Ona görə də o bir az da dözümlü olur, özünü bir az da kişi kimi tutmağa çalışırdı. İçində uşaqlığını öldürür, özünü yeniyetməliyə lap erkəndən hazırlayırdı. Artıq onun əlləri qabar görmüşdü, çiyni ağır yük altına girmişdi. Bu həyat sözə olan münasibəti daha da önə çəkmiş, necə deyərlər, onun ümidinin işığını artırmışdı. Tahir Həbiboğlu bax beləcə, erkən yaşlarından şeirlər yazmağa, gördüklərini, duyduqlarını sözə çevirməyə başlamışdı.

İllər ötdü, onun imzası öncə doğulduğu rayonun qəzetində, sonra isə respublika mətbuatında görünməyə başladı. O jurnalist təhsili almasa da, sözə, qələmə olan sevgisi onu öz peşəsi ilə yanaşı, jurnalistika ilə də məşğul olmağa həvəsləndirirdi. Ona görə də iqtisadçı olan Tahir Məmmədov tezliklə rayon qəzetinin rəhbərliyinin diqqətini çəkdi. Onu "Daşkəsən" qəzetinə işə dəvət etdilər. Necə deyərlər, düz 16 il yorulmadan rayon qəzetində ədəbi işçi, şöbə müdiri, məsul katib kimi işlədi. İmzasını. Sözünü, şəxsiyyətini hər kəsə tanıdıb sevdirdi. Bax, tutduğu bu yol 1970-ci ildə onu "Azərbaycan gəncləri" qəzetinə gətirdi. Artıq Tahir Məmmədov ölkənin ən populyar qəzetinin Daşkəsəndəki müxbir postunun sədri idi. İndi onun yazılarını bütün Azərbaycan oxuyurdu, onun sözlərini bütün Azərbaycan görür, dəyərləndirirdi. Təbii ki, Tahir Məmmədov çalışdığı qəzetlə kifayətlənmir, ölkənin digər mətbu orqanları ilə də əlaqə saxlayır, əməkdaşlıq edirdi. Oxucular, o cümlədən də mən Tahir Məmmədovun imzasını "Kommunist", "Sovet kəndi", "Bakinski raboçi", "Vışka", "İnşaatçı" qəzetlərində, "Azərbaycan təbiəti" jurnalında görməyə başladı. Elə buradaca onu da əlavə edim ki, ölkəmiz müstəqillik qazanandan sonra Tahir Məmmədov Azərbaycanın gündəlik populyar qəzetlərinin hamısı ilə əməkdaşlıq edir, televiziya və radiosu üçün materiallar hazırlayıb və bu gün də öz işini həvəslə görür.

Bəli, yubileyini təkcə özü, ailəsi deyil, həm də oxucuları qeyd edən Tahir Məmmədov ölkənin söz məkanında özünü tanıtmaqla bərabər, özünə və sözünə hörmət də qazandırmağı bacarmışdı. Bu günə qədər xeyli şeirlər kitablarının, saysız-hesabsız publisist məqalələrin, oçerklərin müəllifi olan Tahir Məmmədov həm də "Ədalət" qəzeti ilə sıx əməkdaşlıq edir. Biz də qələm dostumuzu ömrünün müdrik çağında öz yaradıcılıq enerjisi ilə hər birimizə nümunə olmasından qürur duyuruq. Ona Daşkəsən rayon İcra Hakimiyyəti başçısının təbrik məktubu bizi də sevindirir. Elə o sevinc hissləri ilə Tahir Həbib oğlu Məmmədovu 75 yaşı münasibəti ilə təbrik edir və deyirik:

- Yazın, yaradın, Tahir müəllim! Sizin sözünüzə, sizin düşüncələrinizə oxucuların həmişə ehtiyacı olub və bu gün də var. Çünki siz səmimi söz sahiblərindən birisiniz. 75 yaşınız mübarək!

**Əbülfət MƏDƏTOĞLU**